

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

**Sayı: 42 (24.179)**

*4 mart 2023-cü il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 30 qəpik**


2023-cü il "Heydər Əliyev İli"dir

## Heydər Əliyev və hüquqi dövlət quruculuğu

*Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan ölkəmizin tarixində Ümummilli Lider Heydər Əliyev şəxsiyyəti, görkəmli dövlət xadiminin siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarixboyu arzuladığı milli dövlətçilik amallarını məhz Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qurmuşdur. Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Ulu Öndər Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır.*



Ümummilli Liderimizin 1969-1982-ci illərdəki əvəzsiz xidmətlərinə nəzər salanda bir daha aydın olur ki, Heydər Əliyev hələ o dövrdə respublikaya rəhbərliyi vaxtı ölkəmizdə qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə, strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin inşasına nail olmaqla Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş ittifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etmiş, müstəqilliyimizə zəmin yaradan uzaqgörən və müdrik addımlar atmışdır. 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda ali hakimiyyətə xilaskar qayıdışından sonra isə ölkəmizdə qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması mühüm prinsip elan edilmiş, bu ali məqsədlərin gerçəkləşdirilməsinə yönəlmiş çoxşaxəli tədbirlər həyata keçirilmişdir. Hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü vurğulayan Ulu Öndər göstərilən hüquqi yardımın səviyyəsinin yaxşılaşdırılması təşəbbüsü ilə çıxış etmişdir. Bu dövrdən başlayaraq dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insanların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi sivil cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması naminə mühüm addımlar atılmışdır.

Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə həyata keçirilən hüquqi islahatlar davamlı xarakter almışdır. Şərq aləmində ilk dəfə olaraq dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildə Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyulmuş, bu addım insan hüquq və azadlıqlarının qorunması sahəsində tarixi bir hadisəyə çevrilmişdir. 1998-ci il fevralın 10-da isə Azərbaycanda ölüm cəzası ləğv edilmişdir. Ümummilli Liderimizin 3 fevral 1998-ci il tarixli müraciətində deyilirdi: ***"Mən, cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq, ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm"***. Məhz dahi şəxsiyyətin rəhbərliyi altında demokratik və hüquqi dövlət quruculuğu yolunda atılan addımlar, beynəlxalq standartlara əsaslanan köklü hüquq islahatları insan hüquq və azadlıqlarının təminatı sahəsində əsaslı dönüşə səbəb olmuşdur. Görkəmli dövlət xadiminin "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirlməsi haqqnıda" 1994-cü il 9 avqust tarixli Fərmanı ilə cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir.

Görkəmli dövlət xadiminin rəhbərliyi ilə Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində görülmüş işlər dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə etmiş və ölkəmizdə hüquqi sistemi kökündən dəyişmişdir. Şübhəsiz ki, bu tədbirlər sisteminin əsasında 1995-ci ildə qəbul edilmiş, Ümummilli Liderimiz Heydər Əliyevin şah əsəri olan Azərbaycan Respublikasının ilk milli Konstitusiyası dayanır. 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyamızın müəllifi məhz Ümummilli Liderimiz Heydər Əliyevdir. Dahi rəhbər qeyd olunan komissiyanın 10 noyabr 1995-ci il tarixli iclasında demişdir: ***"Komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq".***

Konstitusiyanın qəbul edilməsi hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoymuşdur. 1995-ci ildən isə əfv və amnistiya təsisatları bərpa edilmiş, həmin vaxtdan indiyədək qəbul olunmuş amnistiya aktları, əfv fərmanları yüzlərlə şəxsə tətbiq edilmişdir.

1996-cı ildə Ümummilli Lider Heydər Əliyevin müvafiq Sərəncamı hüquq islahatları komissiyasını, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində qanunun aliliyinin təmin olunmasını, beynəlxalq hüquq normalarının milli qanunvericilikdə nəzərə alınmasını və bu kimi digər əhəmiyyətli məsələləri nəzərdə tuturdu ki, bu da Ulu Öndər Heydər Əliyevin göstərişi ilə qısa zaman kəsiyində uğurla həyata keçirilməklə ölkəmizdə məhkəmə hüququ sisteminin keyfiyyətcə yeniləşməsinə və müasirləşməsinə rəvac vermişdir.

Hüquqi islahatlar sahəsində qəbul edilmiş çox önəmli sənədlərdən biri də 1996-cı il 8 iyun tarixdə imzalanmış "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında" Sərəncamdır. Məhz bundan sonra beynəlxalq standartlara uyğun qanunvericilik aktlarının hazırlanmasına başlanıldı. "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmə və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında" mütərəqqi ruhlu qanunlar və digər normativ-hüquqi aktlar, Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessul məcəllələri, eləcə də digər məcəllələr qəbul olunmuş, qanunvericilikdə insanların təqsirsizlik pezumpsiyası, qanunçuluq, qanun qarşısında bərabərlik, ədalət, təqsirə görə məsuliyyət və digər humanist prinsiplər öz əksini tapmışdır.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi bu orqanın səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Bu baxımdan 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun müstəsna əhəmiyyəti xüsusi vurğulanmalıdır. Mütərəqqi ruhlu bu qanun prokurorluğun totalitar rejimə xas bəzi funksiyalardan azad olmasına, onun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılmasına ciddi hüquqi zəmin formalaşdırmışdır. Məhkəmə-hüquq islahatları çərçivəsində beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun və digər qanunvericilik aktlarının qəbul edilməsi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ sənədlərin təsdiq edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənmə prosesi yeni mərhələyə qaldırılmışdır. Məhkəmə-hüquq islahatları çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası qanunlarına, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə və digər qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

İnsan hüquqlarının qorunmasına müstəsna əhəmiyyət verən Ümummilli Liderimizin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanında bu sahədə həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih müəyyən edilmiş, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır.

Ölkəmizdə insan hüquqlarının qorunması üzrə yeni sistemin yaranmasının parlaq təzahürlərindən biri də "İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) haqqında" Qanunun qəbul edilməsidir. Belə bir hüquqi təsisatın yaradılması qabaqcıl dövlətlərdə tətbiq edilən səmərəli institutların ölkəmizdə fəaliyyət göstərməsinə şərait yaratmışdır.

Milli qanunvericiliyimizin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunmasının daha da etibarlı təmin edilməsi məqsədilə 2002-ci il 24 avqust tarixdə Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilmişdir. "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktına əsasən Azərbaycan Prokurorluğuna qanunvericilik təşəbbüsü və vətəndaşlara Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququ verilmişdir.

*Beləliklə, 1993-2003-cü illər Azərbaycanın demokratik prinsiplərə sadiq bir dövlət kimi inkişafında mühüm bir dövr olmaqla, dünya birliyinə inteqrasiya yolunda da ona çox böyük nailiyyətlər qazandırmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi müdrikliyi və beynəlxalq nüfuzu olmadan bütün bunları əldə etmək mümkünsüz idi. Bu gün tam əsasla, demək olar ki, Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən mütərəqqi qanunlar, həyata keçirilən təşkilati və praktiki tədbirlər ölkəmizdə demokratik, hüquqi dövlətin möhkəm əsasını yaratmışdır. Buna görə gələcək nəsillər də dahi şəxsiyyət Heydər Əliyevin misilsiz əməyi nəticəsində yaradılmış yeni hüquq sisteminin bəhrəsini görəcək və onun Azərbaycanda demokratik-hüquqi dövlət quruculuğu sahəsində əvəzsiz xidmətlərinin şahidi olacaqlar.*


**Faiq SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri***


## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə tədbirlər keçirilib



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar görülən işlər çərçivəsində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində "Dövlətçilik tariximizdə parlaq səhifə açan dahi şəxsiyyət – Heydər Əliyev" mövzusunda tədbir təşkil olunub.

Tədbirdə xidmətin Təşkilat-nəzarət şöbəsinin rəisi, ədliyyə polkovnik-leytenantı Əli Rəhimov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin ədliyyə orqanlarında qeyd edilməsi ilə bağlı təsdiq edilmiş Tədbirlər Planının icrası istiqamətində Penitensiar Xidmətdə görülən işlərlə bağlı ətraflı məlumat verib.

Nazirliyin Qanunvericilik bölməsinin rəisi, ədliyyə müşaviri Ayaz Məhərrəmov "Ulu Öndər Heydər Əliyevin hüquq siyasəti" mövzusunda çıxış edib. Xidmətin Təşkilat-nəzarət şöbəsinin böyük inspektoru, ədliyyə kapitanı Nizami Nəcəfovun "Dövlətçilik tariximizdə parlaq səhifə açan dahi şəxsiyyət – Heydər Əliyev" mövzusunda çıxışı dinlənilib.

Qeyd edilib ki, Ulu Öndərin hakimiyyətdə olduğu dövrdə ölkəmizdə insan, vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi, eləcə də humanizm siyasətinin həyata keçirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib.



Naxçıvan Muxtar Respublikası Turizm Departamenti tərəfindən tərtib edilmiş qrafikə uyğun olaraq istehsalat təcrübəsi müddətində Naxçıvan Dövlət Universitetinin Turizm və otelçilik ixtisası üzrə təhsil alan IV kurs tələbələrinin Heydər Əliyev Muzeyinə ekskursiyası təşkil olunmuşdur. Tələbələrə muzeyin yaranma tarixi haqqında məlumat verilərək bildirilmişdir ki, Heydər Əliyev Muzeyi 1999-cu il 18 fevral tarixdə yaradılmış və 1999-cu il may ayının 10-da fəaliyyətə başlamışdır. Muzeydəki eksponatlar görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, keçdiyi həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallar, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlar, xatirə əşyaları, Ulu Öndərin şərəfinə toxunmuş xalçalar, çəkilmiş portretlər, tarixi fotolar və sənədli filmlər haqqında tələbələrə məlumat verilmişdir. Muzeydəki dəyərli ekspozisiyada Moskvada çalışdığı və yaşadığı dövr Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla tələbələrə nümayiş etdirilmişdir.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılmışdır.


**Xəbərlər şöbəsi**



# Məkrli erməni siyasəti, yoxsa Cənubi Qafqaz regionunda təhlükəsizlik?!

## *Ölkə başçımızın son qətiyyətli diplomatik uğurları həm də dövlətimizin sülhsevər siyasətini bir daha təsdiqləyir*

*Xalqımız mənfur niyyətli ermənilər tərəfindən dəfələrlə kütləvi qırğınlara, soyqırımlara məruz qalıb. XIX əsrin əvvəllərindən başlayaraq məqsədli şəkildə Cənubi Qafqaza köçürülən ermənilər havadarlarının köməyi ilə soydaşlarımızın yaşadıqları minlərlə yaşayış məntəqəsini viran edib, bir milyondan artıq soydaşımız soyqırımına məruz qalıb. 26 fevral Xocalı və 31 mart azərbaycanlıların soyqırımları, 20 Yanvar faciəsi tarixin ən amansız qanlı hadisələri kimi yaddaşlara həkk olunub. Bu günlərdə bəşəriyyət tarixinin qara ləkəsi, əsrlərin ən dəhşətli səhifəsi Xocalı soyqırımının 31 illiyində xalqımız faciə qurbanlarının xatirəsini anmaqla yanaşı, qürur hissi də keçirdi ki, Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Ordumuz soyqırımına məruz qalmış bütün soydaşlarımızın qisasını alıb. Ermənilərin əsrlərdən bəri Azərbaycan xalqına qarşı törətdiyi kütləvi cinayətlərə, amansız soyqırımlara Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin rəhbəri* ***Anar İbrahimov****la bir daha nəzər saldıq:*

***– Hörmətli Anar müəllim, ilk olaraq istərdim xalqımızın erməni vandalizmi ilə dəfələrlə qarşılaşdığı soyqırımı tariximizə birgə nəzər salaq.***

– Bir millət, dövlət olaraq bu soyqırımlarına emosional deyil, rasional yanaşmaq lazımdır. Çünki tarix, kollektiv yaddaş özü siyasi məhfumdur. Əgər bu cür yanaşsaq, onda aydın olacaq ki, Xocalı, ondan əvvəlki 1905-ci il, 1918-ci il mart, 1920-ci il soyqırımları, sovetlər dönəmində azərbaycanlıların məcburi şəkildə öz dədə-baba yurdları olan, indiki Ermənistan Respublikası adlandırılan Qərbi Azərbaycandan deportasiya dalğaları sırf bu məkanda Azərbaycan-türk mövcudluğunu təmizləmək, strateji bölgədə erməniləri köçürüb, burada onları məskunlaşdırmaq məqsədi daşıyan düşünülmüş siyasətin tərkib hissəsi idi. Məsələyə bu cür yanaşsaq, ermənilər özlərinin belə bu siyasətdə alət olduqlarını görə bilər. Təbii ki, bu, mahiyyətcə imperialist siyasətin tərkib hissəsi idi. Çox təəssüf ki, tarixin ayrı-ayrı dönəmlərində həmin imperialist düşüncə və güclə ermənilərin məqsədləri üst-üstə düşdüyü vaxtlarda xalqımıza qarşı bu cür ağır cinayətlər törədilmişdir. Xocalı soyqırımının törədilməsində erməni hərbi birləşmələri ilə yanaşı, Qarabağda yerləşən Rusiyanın 366-cı motoatıcı alayının hərbi qulluqçularının iştirakı faktını da unutmaq olmaz. Azərbaycan müstəqilliyinin ilkin dövrlərində, siyasi və hərbi çətinliklər yaşayan zaman xalqımıza qarşı törədilmiş bu cinayətin məqsədi, heç şübhəsiz, milli iradənin sındırılması, onun müstəqilliyinin əlindən alınması və Qarabağın ermənilər tərəfindən işğalı ilə barışması məqsədi daşıyırdı. Tarix onların yanıldığını sübut etdi. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışı bu planları puç etdi, Azərbaycan gücləndi və Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımızın 2020-ci ildə Vətən müharibəsindəki Qələbəsi regionda yeni reallıqlar yaratdı. Xocalı soyqırımının dünya dövlətlərində və beynəlxalq təşkilatlarda tanıdılması kampaniyaları, "Xocalıya ədalət!" devizi ilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə aparılan genişmiqyaslı kampaniya ermənilərin törətdiyi cinayətlərin tanıdılması üçün olduqca vacib idi. Artıq dünya Xocalı soyqırımı haqqında yetərincə məlumatlıdır və tam məsuliyyətlə söyləyə bilərik ki, ermənilər və onların havadarları heç zaman bu cinayətin məsuliyyəti altından qaça bilməyəcəklər.

***– Yaxın zamanlarda keçirilən Münxen Təhlükəsizlik Konfransında bədnam Ermənistana rəğmən dövlətimizin sülhün və sabitliyin təmin olunması üçün səylərin və imkanların səfərbər olunması yönündə ciddi addımlar atdığını Prezident cənab İlham Əliyev öz qətiyyətli çıxışı ilə bir daha təsdiq etdi. Dünyanın əhəmiyyətli coğrafi məkanında yerləşən Azərbaycana qarşı irəli sürülən əsassız ərazi iddiaları, törədilən terror aktları ölkəmizin təhlükəsizliyinin pozulmasına yönəldilmiş qərəzli siyasət deyilmi?***

– Təbii ki, elədir, ölkəmizə qarşı qərəzli yanaşmalar mövcuddur və prosesləri izləyən istənilən neytral müşahidəçi bu yanaşmanı görməyə bilməz. Ölkə Prezidenti cənab İlham Əliyev qeyri-adi diplomatik peşəkarlığı sayəsində Azərbaycan öz yeni tarixində siyasi və iqtisadi uğurlar qazanmış, ölkəmiz Qarabağ problemini birdəfəlik həll etmiş, ağır müharibədə Böyük Qələbə qazanmışdır. Bununla belə ölkəmizin nüfuzu Azərbaycanı etibarlı tərəfdaşa və regional proseslərdə söz sahibinə çevirmişdir. Bütün bunlar son illər yaradılan siyasi reallıqdan irəli gəlir. Təbii ki, bu durumda Ermənistan əvvəlki kimi Azərbaycana qarşı açıq ərazi iddiaları irəli sürə bilmir, lakin qeyri-konstruktiv davranaraq bölgəmizdə sülh və əmin-amanlığın yaradılmasına mane olur, prosesləri yubatmaq üçün müxtəlif cəhdlər edir. Sözsüz ki, ermənilərin bu taktikasının da perspektivi yoxdur, çünki Azərbaycanın siyasi, iqtisadi, demoqratik və hərbi potensialı getdikcə artır. Erməni cəmiyyətinin daxilində də bunu dərk edən təbəqə var. Təəssüf ki, bəzi dövlətlər və onların maraqları erməni tərəfinə yersiz ümidlər verməklə, onları himayə etməklə prosesin qarşısını almağa çalışırlar. Lakin qeyd etdiyimiz kimi, belə cəhdlər ilə prosesi dayandırmaq artıq mümkün deyil.

***– Müdafiə Nazirliyinin məlumatında da bildirdiyi kimi fevral ayının 21-də düşmən müxtəlif mövqelərdən, eləcə də Sədərək rayonu istiqamətindən mövqelərimizi atəşə tutmuşdur. Nəinki bu gün, Naxçıvan hər zaman bu təhlükəyə mərdliklə sinə gərməli olub. Gülünc doğuran bu hədə-qorxu, sizcə, ermənilərin Münxen Təhlükəsizlik Konfransındakı rüsvayçı məğlubiyyətindən sonrakı aqressiyası deyilmi?***

– Bir qədər sizinlə razı deyiləm. Nə mənada? Ermənistanda Azərbaycanofobiya və qərəz həddi nə qədər çox olsa belə erməni cəmiyyətində bir konsensus var ki, müharibəni uduzublar. Və gələcək on illərdə, bəlkə də, daha çox zamanda Ermənistanın potensialı bu vəziyyəti dəyişdirmək üçün yetərli deyil. İndiki halda onlar Azərbaycanla siyasi və diplomatik qarşıdurmada belə xarici tərəfdaşlarını və müttəfiqlərinə arxalanırlar. Prezident cənab İlham Əliyev də Münxen Konfransındakı çıxışında qeyd etdiyi kimi, Ermənistanda keçən il keçirilən parlament seçkilərində kapitulyasiyaya imza atmış məğlub Ermənistan hökumətinin baş naziri Nikol Paşinyanın partiyasının qələbə qazanması erməni seçicisinin, xalqının reallığı qəbul etməsinin göstəricisidir. Münxen Konfransından dərhal sonra Ermənistan-Azərbaycan sərhədində erməni hərbi birləşmələrinin təxribatları isə ümumi fonu dəyişmir. Erməni siyasi və hərbi elitası bunu yaxşı dərk edir, keçən ilin yayında Azərbaycan Silahlı Qüvvələrinin Qarabağdakı "Fərrux" və Ermənistanla şərti və delimitasiya olunmamış sərhəddəki "Qisas" əməliyyatları qarşı tərəf üçün lazımi siqnal idi. Əgər gələcəkdə erməni tərəfi bu təxribatlara əl atmaq fikrinə düşərlərsə, nəticə onlar üçün daha ağrılı və daha ciddi olacaq.

***– Dövlətimiz hər zaman sülh siyasəti aparır və Ermənistanı sülh sazişinin imzalanmasına dəvət edir. Bunu dəfələrlə – Brüssel görüşlərində də gördük, Münxen Təhlükəsizlik Konfransında da, Zirvə toplantılarında da… Prezident cənab İlham Əliyevin postmüharibə dövründə sülh və təhlükəsizlik siyasəti yürütməsi, həm Zəngəzur dəhlizinin hər iki başında, həm də Laçın rayonu ilə Ermənistan arasındakı sərhəddə nəzarət buraxılış məntəqələrinin yaradılması təklifi bunu bir daha təsdiq edir. Azərbaycanın siyasi mövqeyi odur ki, təhlükəsiz şəraitdə ortaq tərəfdaşlıqla dəhliz açılsın, əlaqələr bərpa olunsun. Bunu dövlətimizin başçısı dəfələrlə bəyan etmişdir. Bəs məğlub Ermənistan niyə yenə öz məkrli anti-Azərbaycan siyasətindən niyə əl çəkmir?***

– Qafqazda təhlükəsizlik tək Azərbaycanın deyil, bütün maraqlı tərəflərin gözləntisi və arzusudur. Azərbaycanın siyasəti tək bizim üçün deyil, bütövlükdə, hamı üçün faydalıdır, ən əsası isə bu təşəbbüslər beynəlxalq hüquq və normalar üzərində qurulub. Hazırkı şəraitdə Ermənistanın və bəzi digər dövlətlərin qeyri-konstruktivliyi, proseslərə müdaxiləsi bu prosesdə daha vacib mövqe tutmaq üçün mövqe savaşlarının elementidir. Ermənistan, sadəcə, bu siyasətdə vasitədir. Əsas odur ki, Azərbaycanın bölgə ilə bağlı təşəbbüsləri, praqmatik yanaşması dünya gücləri tərəfindən qəbul olunur. Elə olsun Prezident cənab İlham Əliyevin müəllifi olduğu Cənubi Qafqazda "3+3 regional əməkdaşlıq platforması", bir çox enerji və kommunikasiya layihələri. Bölgənin münasibətlər sisteminin qurulmasında təşəbbüskarlıq Azərbaycana məxsusdur. Sualınızın son hissəsinə gəldikdə isə deyərdim ki, Ermənistan cəmiyyəti Qarabağ müharibəsində Azərbaycana hərbi məğlubiyyətdən sonra ardıcıl olaraq bu mərhələləri keçmişlər. İnkar, hirs, bazarlıq, depressiya mərhələləri, bütövlükdə, toplum üçün geridə qalmışdı. İndi isə son, yəni yeni reallıqların qəbulu mərhələsindəyik. Məncə, bunu çox gözləmək lazım gəlməyəcək.

***– Dövlət başçımızın apardığı uğurlu xarici siyasət Azərbaycanın son illər dünyada artan nüfuzu nəticəsində ölkəmizin bir sıra beynəlxalq təşkilatlarla əlaqələri daha da genişlənib, həmin təşkilatların fəaliyyətində fəal iştirakı daha qabarıq şəkildə özünü göstərir. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş kimi qəbul edirlər. Bu mənada, dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatının məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu tarixini yaşadığını da vurğulamaq yerinə düşər...***

– Haqlısınız. Öncə xatırladım ki, Azərbaycan Qoşulmama Hərəkatına (QH) sədrliyi 2019-cu ildən etibarən üç il müddətinə həyata keçirməyə başlayıb. 2019-cu ildə ölkəmiz QH-nin sammitinə uğurla ev sahibliyi etdi və bu tədbirdə Prezident cənab İlham Əliyev vurğuladı ki, Azərbaycan öz sədrliyi dövründə beynəlxalq hüququ və ədaləti müdafiə edəcək. Belə də oldu. Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra Azərbaycanın quruma sədrlik etməsi üzv dövlətlərin ölkəmizə olan etimadının və Azərbaycanın beynəlxalq nüfuzunun artmasının, eləcə də respublikamızın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin bariz ifadəsidir. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın çoxtərəfli diplomatiyası dünya birliyi tərəfindən təqdir olunur. Bu prosesdə Azərbaycan dövlətinin və Prezident cənab İlham Əliyevin təşəbbüskarlığı, qətiyyəti və siyasi iradəsi də mühüm rol oynadı. Pandemiya dövründə belə Azərbaycan qlobal liderlik rolunu üzərinə götürdü, qlobal problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu. Belə ki, məhz Azərbaycanın sədrliyi altında Qoşulmama Hərəkatı dünya ictimaiyyətini pandemiya ilə mübarizədə səfərbər etdi. Prezident, Qoşulmama Hərəkatının sədri cənab İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında QH-nin COVID-19 ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Bu sammitdə Prezident cənab İlham Əliyev BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsini təklif etdi. Bu təklif dünya ictimaiyyəti tərəfindən dəstəkləndi və 2020-ci ilin dekabrında xüsusi sessiya uğurla baş tutdu. Bu xüsusi sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir hesab olunur. Eyni zamanda QH sədri kimi ölkəmiz "peyvənd millətçiliyi"nə qarşı uğurla mübarizə apardı. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi.

Azərbaycanın sədrliyinin ən böyük uğurlarından biri də QH-nin təsisatlanması məsələsidir. Sədrliyimiz dönəmində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Təşkilatı təsis olunub. Ötən il iyunun 30-da Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransından bir ay keçməmiş – iyulun 25-29-da Azərbaycanda keçirilən Qoşulmama Hərəkatı Gənclər Sammiti çərçivəsində tarixə Şuşa Akkordu (Şuşa razılaşması) kimi düşən Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılmasına dair sənədin qəbulu ilə ölkəmizin mədəniyyət paytaxtı olan Şuşanın adı bu mötəbər qurumun tarixinə yazıldı. Qoşulmama Hərəkatının Gənclər Təşkilatının daimi katibliyi isə Bakıda yerləşəcək.

***– Bəs Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycanın Ermənistanın təcavüzünə qarşı mübarizəsində nə kimi rol oynayıb?***

– Azərbaycanın bu istiqamətdəki fəaliyyəti ona güclü beynəlxalq dəstək qazandırıb. Məhz genişmiqyaslı uğurlu beynəlxalq fəaliyyəti sayəsində ölkəmizin keçmiş Qarabağ münaqişəsi ilə bağlı mövqeyi Hərəkatın sənədlərində dəstəklənib. Qoşulmama Hərəkatının Azərbaycana siyasi dəstəyinin bariz nümunəsi olaraq isə Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in Minsk qrupunun həmsədir ölkələrinin hazırladıqları bəyanat layihəsini geri götürməyə məcbur olmasını göstərmək olar. Həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alınıb.

Onu da qeyd edim ki, 2021-ci ildə QH-nin yaradılmasının 60-cı ildönümünə həsr edilən Belqrad tədbirində Prezident cənab İlham Əliyev postpandemiya dövrünün müzakirə edilməsi məqsədilə QH ölkələrinin yüksək səviyyəli görüşünün keçirilməsi təklifi ilə çıxış etmişdi. Buna uyğun olaraq bu il martın 2-də ölkəmizdə QH-nin postpandemiyaya həsr olunmuş sammit səviyyəli görüşü keçiriləcək. Tədbirdə bir sıra QH ölkələrinin, müşahidəçi dövlətlərin və qonaq qismində dəvət edilən ölkələrin dövlət və hökumət başçılarının, digər rəsmilərinin, eləcə də beynəlxalq təşkilatların rəhbərlərinin iştirakı nəzərdə tutulur. Tədbirin əsas məqsədi postpandemiya dövründə aktual olan vacib məsələlərin müzakirə edilməsidir. Yəni mövzu təkcə pandemiya məsələsi deyil, daha çox pandemiyadan sonrakı dünya məsələləridir. Bu isə həm də o deməkdir ki, Azərbaycan pandemiya zamanı olduğu kimi, postpandemiya dönəmində də qlobal məsələlərə çevik reaksiya verir, təşəbbüslərlə çıxış edir, liderliyini davam etdirir. Bu sammit isə, öz növbəsində, Prezident, Qoşulmama Hərəkatının sədri cənab İlham Əliyevin fəal, təşəbbüskar və çevik xarici siyasətinin növbəti bariz göstəricisidir.

Azərbaycanın bu günlərdə Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünə uğurlu ev sahibliyi etməsi isə ölkəmizin beynəlxalq siyasi nüfuzunu daha da artırdı. 70-ə yaxın ölkənin dövlət və hökumət başçıları, 5 ölkənin, o cümlədən Bosniya və Herseqovina, Türkmənistan, Özbəkistan, İraq, Liviyanın prezidentləri, üç ölkənin – Kuba, Qabon, Tanzaniyanın vitse-prezidentləri, Əlcəzair və Keniyanın Baş nazirləri, müxtəlif ölkələrin yüksək səviyyəli nümayəndələri, həmçinin beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdiyi bu sammit səviyyəli görüş nəinki Azərbaycanın, 120 ölkə arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatının tarixinə də unikal hadisə kimi düşdü.

***– Maraqlı müsahibəyə görə təşəkkür edirəm.***

**Gülcamal TAHİROVA**

## Dahi şəxsiyyətin yüzillik yubileyinə həsr olunmuş tədbirlər keçirilib



Naxçıvan Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Bilik piramidası" yarışmasının qalibləri mükafatlandırılıb. 23-27 fevral tarixlərdə keçirilən bilik yarışmasının yekun tədbirində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, "Ümummilli Lider Heydər Əliyev – 100" adlı videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan rektor, dosent Elbrus İsayev universitetdə Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə hazırlanmış müsabiqəni yüksək qiymətləndirib. Bildirilib ki, Heydər Əliyev XX əsrdə ümummilli ideyaları və həmin ideyaların gerçəkləşdirilməsinə nail olma bacarığı ilə xalqımızın tarixi taleyində müstəsna rol oynamış ən böyük tarixi şəxsiyyətlərdən biri olub. Vurğulanıb ki, Heydər Əliyevin Azərbaycan xalqının tarixi taleyi ilə bağlı işıqlı ideyalarının gerçəkləşməsinin nəticəsidir ki, bu gün Azərbaycan sürətli sosial-iqtisadi inkişaf yolunda olan, öz ərazi bütövlüyünü bərpa edən müstəqil və qüdrətli bir dövlətdir. Rektor qeyd edib ki, Ulu Öndər Heydər Əliyev bir neçə dəfə Naxçıvan Dövlət Universitetində olub, universitetin inkişafında əvəzsiz rol oynayıb.

Naxçıvan Dövlət Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanov bildirib ki, layihə Ümummilli Lider Heydər Əliyevin həyat və siyasi fəaliyyətinin, Azərbaycanın zəngin milli və mənəvi dəyərlərinin, Birinci Qarabağ müharibəsi və Vətən müharibəsində igid oğullarımızın qəhrəmanlığının təbliği məqsədini daşıyır.

"Bilik piramidası" yarışmasının layihə rəhbəri, Fizika ixtisası üzrə III kurs tələbəsi Sədi Zeynalov yarış haqqında iştirakçıları məlumatlandırıb. Diqqətə çatdırılıb ki, layihə ilk mərhələ, yarımfinal və final olmaqla, 3 mərhələdən ibarət olub.

Qeyd edək ki, muxtar respublika ali təhsil müəssisələrindən, ümumilikdə, 125 nəfərin iştirak etdiyi oyunlarda 25 tələbə yarımfinal mərhələsinə vəsiqə qazanıb.

Dörd gün davam edən müsabiqənin finalında Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Nigar Babayeva I yerin sahibi olub.

Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Zəhmət Hüseynov II, "Naxçıvan" Universitetinin tələbəsi Həsən Məmmədov isə III yerə layiq görülüb.

Sonda yarışın qalibləri mükafatlandırılıb, hesabat videoçarxına baxış olub.

***Naxçıvan Dövlət Universiteti Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

Naxçıvan Müəllimlər İnstitutunda "Ümummilli Lider Heydər Əliyev və Azərbaycançılıq ideologiyası" mövzusunda keçirilən xüsusi dərsdə institutun prorektoru Çapay Quliyev çıxış edərək bildirmişdir ki, Ümummilli Lider Heydər Əliyevin ölkəmizə hər iki rəhbərliyi dövründə Azərbaycançılıq ideologiyasının formalaşması, qorunması və təbliğinin həm siyasi, həm də ideoloji əsasını müəyyənləşdirmişdir. Bu ideologiya əsasında formalaşan gənclik dünyanın harasında yaşamasından asılı olmayaraq, yalnız bir amal uğrunda Azərbaycan naminə birlik, bərabərlik nümayiş etdirərək səfərbər olur. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində bu birliyin şahidi olduq.



Xüsusi dərsdə Humanitar və ictimai fənlər kafedrasının baş müəllimi Qorxmaz Hacızadə "Azərbaycançılıq ideologiyasının tarixi-siyasi mərhələləri və çətinlikləri" mövzusunda çıxış etmişdir.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## İdmanın inkişafına göstərilən dövlət qayğısı sağlam gəncliyin yetişməsinə xidmət edir

*Prezident cənab İlham Əliyevin 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən hər ilin 5 mart tarixi Azərbaycanda "Bədən Tərbiyəsi və İdman Günü" kimi qeyd edilir. Qədim idman ənənələri ilə seçilən ölkəmizdə bu sahənin inkişaf strategiyasının təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən atılıb.*

Dahi şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirilib, gənc nəslin fiziki, əqli cəhətdən sağlam böyüməsinə qayğı ilə yanaşılıb. Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ölkədə idmanın inkişafına güclü təkan verdi. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirildi. 1997-ci ildən gənclər və idman siyasəti yeni mərhələyə qədəm qoydu. Həmin ilin 31 iyulunda hazırkı ölkə başçısı cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra ölkəmizdə idman hərəkatı daha da genişləndi, bu sahənin inkişafına xidmət edən kompleks tədbirlər həyata keçirilməyə başlandı. Azərbaycana rəhbərliyi dövründə isə ölkənin idman həyatında yeni inkişaf konsepsiyası tətbiq olundu. Nəticədə, bədən tərbiyəsi və idman sahəsində kütləvilik artdı, güclü idmançı nəsli yetişdi, Azərbaycan etibarlı ev sahibi ölkə kimi nüfuz qazandı, beynəlxalq aləmdə böyük uğurlar əldə olundu.

Ölkə başçısının diqqət və qayğısı ilə idman sahəsində əsl yüksəliş dövrünü yaşayan ölkəmiz müasir və baxımlı idman infrastrukturu, o cümlədən təşkilatçılıq bacarığı sayəsində nüfuzlu yarışların ev sahibi oldu. Bunlara misal olaraq 17 yaşlı qızlar arasında futbol üzrə dünya çempionatı, I Avropa Oyunları, 17 yaşadək oğlanlar arasında futbol üzrə Avropa çempionatı, 42-ci Ümumdünya Şahmat Olimpiadası, IV İslam Həmrəyliyi Oyunları, Formula-1 Azərbaycan Qran-priləri, güləş, cüdo, atıcılıq, gimnastika və bir çox idman növləri üzrə qitə və dünya çempionatlarını qeyd edə bilərik. Futbol üzrə Avropa çempionatının final mərhələsinin qrup görüşlərinin üç, dörddəbir finalın isə bir oyununun Bakıda keçirilməsinə nail olmaq ölkəmizin beynəlxalq sferada artan nüfuzundan irəli gəlir. Müstəqillik illərində Yay Olimpiya Oyunlarından, ümumilikdə, 49 medal qazanıldı. Sonuncu Paralimpiadada əldə olunan tarixi uğur isə bir daha göstərir ki, ölkəmizdə idman əhatəli şəkildə inkişaf edir və bu mənada, sağlamlıq imkanları məhdud şəxslərin idmana cəlbi, onlara göstərilən dövlət dəstəyi öz bariz nəticələrini verməkdədir. Xatırladaq ki, Azərbaycanın yığma komandası Tokio Paralimpiadasını 14-ü qızıl, 1-i gümüş, 4-ü bürünc olmaqla, 19 medalla tamamlayaraq ölkə tarixində ilk dəfə olaraq bu mötəbər yarışlarda ilk onluğa yüksəlməyi bacarmışdı. Bütövlükdə isə təkcə ötən il idmançılar beynəlxalq yarışlarda 800-dən çox medal qazanıb və onlardan 300-ə yaxını qızıl medaldır. Ümumiyyətlə, olimpiadalar da daxil olmaqla, bir sıra nüfuzlu yarışlarda uğur qazanmış idmançı və məşqçilər dövlətimiz tərəfindən müxtəlif formada mükafatlandırılır. Bütün bunlar onların əhval-ruhiyyəsini, maddi və psixoloji vəziyyətini yüksəltməklə böyük karyera və uğurlar baxımından stimullaşdırıcı xarakter daşıyır. Sonuncu dəfə ötən ilin idman yekunlarına həsr olunmuş tədbirdə Prezidentin bir qrup idman ictimaiyyəti nümayəndəsini mənzil orderi ilə şəxsən təltif etməsi, motivasiyaedici və istiqamətləndirici fikirləri ilə onlara növbəti dəfə öz dəstəyini göstərməsi dövlətimizin daim idmançıların yanında olduğunun nəticəsidir.

Qeyd etmək lazımdır ki, Böyük Zəfərin ardınca azad edilmiş ərazilərdə dövlətimizin apardığı genişmiqyaslı bərpa-quruculuq işlərinin tərkib hissəsi kimi idman infrastrukturunun yaradılması da əsas planlara daxildir. Ötən il artıq Şuşada "Shusha Chess-2022" beynəlxalq şahmat turniri, Suqovuşanda "Mingəçevir reqatası-2022" beynəlxalq avarçəkmə turniri və Zəngilanın Ağalı kəndində "Zəfər yürüşü" triatlon turniri keçirildi. Prezident cənab İlham Əliyevin ötən ilin idman yekunları ilə bağlı tədbirdə səsləndirdiyi fikirlərdən də aydın olur ki, əzəli torpaqlarımızda idmanın gələcək inkişafına xüsusi önəm verilir: ***"Azad edilmiş şəhərlərin hər birində idman qurğularının yaradılması nəzərdə tutulur. Bütün şəhərlərin Baş planları təsdiq edilib. Bütün bərpa-quruculuq işləri Baş planlar əsasında aparılacaq və idman obyektlərinin yaradılması nəzərdə tutulur. Bildirməliyəm ki, Ağdamın məşhur "İmarət" stadionunun yeni layihəsi işlənilir. Stadion yenidən qurulacaq, eyni zamanda onun yanında böyük Olimpiya İdman Kompleksi yaradılacaq. Bununla bərabər olaraq keçən il Ağdamın Eyvazxanbəyli kəndində Qarabağ Atçılıq Kompleksinin təməli qoyuldu. Biz Qarabağ Atçılıq Kompleksini işğal dövründə Ağcabədi rayonunda yaratmışdıq, yenə də Qarabağ torpağında yaratmışıq. Ancaq qərar qəbul olundu ki, bunun əzəli yerində – Eyvazxanbəyli kəndində çox gözəl, müasir atçılıq kompleksi yaradılsın. Artıq işlərə start verilmişdir".***









Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafına xüsusi dövlət qayğısı göstərilir. Gənc nəslin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması işləri diqqət mərkəzində saxlanılır. Bu işlərin davamlı həyata keçirilməsi və yaradılan müasir idman mühiti gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır, idman klublarının və federasiyaların heyəti ilbəil genişlənir. İdmançılarımız ölkə və beynəlxalq arenalarda keçirilən yarışlarda, irimiqyaslı və nüfuzlu çempionatlarda, turnirlərdə uğurla təmsil olunur, müxtəlif mükafatlara layiq görülürlər. İstedadlı idmançılara dövlət qayğısı göstərilir, il ərzində fərqlənən yeniyetmə və gənclərimiz mükafatlandırılır.

Dövlət gənclər və idman siyasətinin davamlı icrasının nəticəsi kimi bədən tərbiyəsi və idman muxtar respublikada ildən-ilə daha da inkişaf edir. Son illər bu istiqamətdə görülən işlər intensiv xarakter alıb. Dəvət əsasında təcrübəli idman mütəxəssisləri tərəfindən təlim, kurs və nümunəvi dərslərin təşkili, o cümlədən təmsilçilərimizin ölkəmizdə və xaricdə keçirilən bu tipli tədbirlərdə iştirak etməsi ilə təcrübə mübadiləsi və əməkdaşlıq işi davam etdirilib, müxtəlif idman növləri üzrə yeni bölmələrin yaradılması, ixtisaslı kadrların hazırlanması, maddi-texniki bazanın modernləşdirilməsi, bədən tərbiyəsi və idman sahəsində investisiya mühitinin yaradılması, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və pullu xidmət növlərinin inkişaf etdirilməsi diqqətdə saxlanılıb. Muxtar respublikada həyata keçirilən tikinti- quruculuq işlərinə uyğun olaraq yeni istirahət parkları və yaşayış binalarının ərazisində sadə tipli idman qurğularının quraşdırılması, idmanda biznes mühitinin formalaşdırılması nəticəsində əhalinin idmana cəlbi daha kütləvi xarakter alıb. Qadınların idmana cəlbi istiqamətində də mühüm işlər görülür. İdmanın müxtəlif növləri ilə məşğul olan qızların sayı ilbəil artmaqdadır. Belə ki, müxtəlif idman federasiyaları və təhsil müəssisələri üzrə qızlardan ibarət klublar yaradılıb, onların idman obyektlərindən istifadəsi təmin olunub, eyni zamanda qadınların məşqçilik və hakimlik fəaliyyətinə cəlbi davam etdirilir. Həmçinin sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin idman bölmələrinə cəlbi, yarışlarda iştirakı və mövcud idman obyektlərindən ödənişsiz istifadəsi təmin olunur, bədən tərbiyəsi və idmanın məhdud fiziki imkanlı gənclər üçün əhəmiyyəti barədə maarifləndirici tədbirlər keçirilir. Bununla yanaşı, Naxçıvan idmanında baş verən aktiv proseslər son illər yeni zərurətlərin yaranmasına səbəb olub. Uzunoba Təlim-Məşq İdman Kompleksi istifadəyə verildikdən sonra muxtar respublikada çimərlik futbolu və çimərlik voleybolu kimi mövsümi idman növləri yarandı, fitnes zallarının artımı ilə bir sıra idman növlərində canlanma başladı, muxtar respublikanın təbii-coğrafi relyefi və turizm imkanları sayəsində "skandinav yürüşçü"ləri formalaşdı, yamac paraşütü üzrə test uçuşları və yolsuzluq avtomobillərinin yürüşləri keçirildi. 23 ölkədən 50 titullu şahmatçı olmaqla, ümumilikdə, 200-ə yaxın idmançının iştirakı ilə 16 yaşadək şahmatçılar arasında Beynəlxalq Şahmat Olimpiadası, "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun 55 yaşının qeyd olunması ilə bərabər, Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Bir uşaq-bir top" adlı ilk genişmiqyaslı futbol festivalı keçirildi. Naxçıvana dəvət olunan dünyaca tanınmış Tanju Çolak, Elnur Məmmədli, Hacı Əliyev və bir çox sayılıb-seçilən simalar gənc nəslin yeni təcrübələr əldə etməsinə vəsilə oldu. Şahmat üzrə beynəlxalq statuslu norma və reytinq turnirləri keçirilməyə başlandı. "Level-1" beynəlxalq məşqçilik kursları və təlimlərin məntiqi davamı olaraq ilk badminton klubu yaradıldı. İlk dəfə olaraq bədii gimnastika üzrə nümunəvi çıxışlar nümayiş olundu, balaca gimnastlarımız qrup halında ölkə səviyyəli yarışlarda çıxış etməyə başladılar. Vətən müharibəsi iştirakçılarının idmana cəlbində intensivlik yaradıldı. Naxçıvan idman ictimaiyyətinə verilən dəyərin örnəyi olaraq ölkədə bədən tərbiyəsi və idmanın inkişafındakı xidmətlərinə görə 5 nəfər "Azərbaycan Respublikasının Əməkdar məşqçisi" adına layiq görüldü. Muxtar respublika idmançıları ölkəmizin və dünyanın müxtəlif arenalarında uğurlu çıxışları ilə yadda qaldılar. Belə ki, idmançılarımız 2022-ci il ərzində ölkə səviyyəli yarışlarda 216, beynəlxalq turnirlərdə 63, Avropa çempionatında 33, dünya çempionatında 2, dünya kubokunda 2 medal olmaqla, 316 medal qazanıblar. Medallardan 131-i qızıl, 77-si gümüş, 108-i isə bürüncdür.

Gələcəyimiz olan gənclərin fiziki və əqli cəhətdən sağlam böyüməsində bədən tərbiyəsi və idmanın mühüm rolu var. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi müvafiq sahənin davamlı inkişafı istiqamətində işləri davam etdirir. Nazirlik dövlət idman siyasəti çərçivəsində tələb və tapşırıqların icrasını diqqət mərkəzində saxlayaraq ölkəmizin və muxtar diyarımızın idman mühitinə töhfə verməsi üçün maksimum səylə çalışacaqdır. 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar olaraq artıq müxtəlif layihə və tədbirlərin icrasına başlanılıb. Bu və digər istiqamətlər üzrə il ərzində bir sıra genişmiqyaslı tədbirlərin keçirilməsi nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Ümummilli Liderin yüzillik yubileyinə həsr olunmuş ustad dərsi keçilib



Naxçıvan Musiqi Kollecində Ümummilli Liderin 100 illik yubileyi münasibətilə kollecin Aktyor sənəti və bədii yaradıcılıq, Xoreoqrafiya ixtisasları üzrə təhsil alan tələbələr üçün "Dahi şəxsiyyət Heydər Əliyev və Naxçıvan teatr mədəniyyəti" adlı ustad dərsi keçilib. Sonra Ulu Öndərin Naxçıvan teatr mədəniyyətinə yüksək qayğısından bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə Naxçıvan Musiqi Kollecinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Məhəbbət Babayeva çıxış edərək Ulu Öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafına verdiyi tarixi töhfələrindən danışıb. Diqqətə çatdırılıb ki, görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyi dövründə ölkəmizin hər bir sahəsində olduğu kimi, mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz beynəlxalq aləmdə tanındı və inkişaf yoluna qədəm qoydu. Bu gün diyarımızda mövcud olan incəsənətin, o cümlədən milli-mənəvi dəyərlərin elə bir sahəsi yoxdur ki, Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısından bəhrələnməsin. Musiqimiz, teatrımız, kino sənətimiz, heykəltəraşlıq və rəssamlığımız, xalça sənətimiz bugünkü inkişafında bu dahi şəxsiyyətin dəyərli ideyalarına söykənir.

Məhəbbət Babayeva tədbir iştirakçılarına Naxçıvan teatrının tarixi barədə məlumat verərək bildirib ki, Naxçıvanda teatr sənəti, hələ qədim dövrlərdən meydan teatrı və şəbeh tamaşaları formalarında mövcud olmuşdur. 1886-cı il avqustun 12-də mütərəqqi ziyalılardan Hacı Nəcəf Zeynalovun Zaviyə məhəlləsindəki evində M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının oynanılması ilə Naxçıvan teatrının təməli qoyulmuşdur. Müxtəlif illərdə teatrın səhnəsində dram əsərləri ilə yanaşı, musiqili teatr əsərləri, opera və musiqili komediyaları uğurla səhnələşdirilmişdir. Bu gün öz dövrünün böyük maarif fədailərinin səyləri nəticəsində bünövrəsi atılan Naxçıvan teatrı böyük sənət ənənələri yaradaraq bir neçə incəsənət ocağının da fəaliyyətinə təkan verib.

Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev ustad dərsi zamanı Ulu Öndərin ölkəmizin incəsənətimizin inkişafındakı misilsiz xidmətlərindən danışıb. Qeyd olunub ki, Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyindən sonra bir çox sahələr inkişaf yoluna qədəm qoydu, mədəniyyətimiz, tariximiz, milli-mənəvi dəyərlərimiz, musiqimiz sovet əsarətinin cəngindən çıxaraq, sözün əsl mənasında, azadlığa qovuşdu. Dahi rəhbərin atdığı böyük addımlar nəticəsində xalqımız öz milli kimliyinə sahib çıxa bildi, böyük təzyiqlərə, çətinliklərə baxmayaraq, tarixi ədalət bərpa olundu. Bu gün 100 illik yubileyini qeyd etdiyimiz Ulu Öndər həm də Azərbaycan teatrının inkişafı və tərəqqisi üçün böyük səylə çalışmış, ölkəmizdə, eləcə də muxtar diyarımızda nümunəvi, mütərəqqi ideyalara malik incəsənət mühiti formalaşdırmışdır.

Səməd Canbaxşiyev Naxçıvan teatrının 150 illik incəsənət fəaliyyətinə toxunub, bu ədəbi sənət ocağının tarixi inkişaf yolu haqqında məlumat verib. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın Azərbaycan tarixinə, elminə, ədəbiyyat və ictimai fikrinə çoxsaylı görkəmli şəxsiyyətlər bəxş etməsindən danışıb.

Ustad dərsi zamanı kollecin müəllimləri, sənətşünas alimlər Naxçıvan teatrının tarixi, milli-mənəvi dəyərlərimizin gənclərimizə aşılanması, həmçinin Ümummilli Liderimiz tərəfindən Naxçıvan teatrı olmaqla ölkəmizin teatr mədəniyyətinə göstərilən diqqət və qayğıdan danışıblar.

✍ **Məcid RƏŞADƏTOĞLU**

*Qarşıdan 8 Mart – Beynəlxalq Qadınlar Günü gəlir. İlk dəfə Romada keçirilən bu bayram artıq dünyanın dörd bir yanında təntənəli şəkildə qeyd olunur. Bu bayramda qadınlara ən çox təqdim olunan hədiyyə güldür. Qadınlara veriləcək onlarca hədiyyə alternativi olsa da, bunların başlıcası güllər hesab edilir. Həqiqətən də, gül insan duyğularını ən gözəl şəkildə ifadə edən hədiyyələrdən biridir. Ədəbiyyatımızda güllərin gözəlliklərindən ilhamlanaraq müxtəlif şeirlər yazılıb. Buna misal olaraq Abdulla Şaiqin "Qızılgül" şeirini nümunə göstərə bilərik.*

## Gül qadınlarımızı təbrik etmək üçün ən gözəl hədiyyədir

*Qızıl güləm, qızıl gül,*
*Məni sevər hər könül.*
*Yaşıldır incə belim,*
*Qızıldandır hər telim.*



Bu gün dünyada gül bağışlamaq bir ənənəyə çevrilib. Bəs bizdə necə? Bu ənənə məişətimizdə öz əksini necə tapıb? Yolumuzu şəhərin ən böyük gül mağazası olan "Al çiçəyim"dən saldıq. Bu mağazanı seçməyimizdə məqsədimiz burada satılan gül-çiçəkləri sahibkarın öz fərdi təsərrüfatında yetişdirməsi idi. Mağaza sahibi Babək rayon Zeynəddin kənd sakini, sahibkar ***Əbdüləli Abbasov*** illərdir, bu işlə məşğul olur. Onun dediklərindən: – Artıq illərdir ki, bir hektarı əhatə edən gül istixanasında müxtəlif güllər becərərək satışa çıxarıram. Bu güllər arasında qızılgül, qərənfil, yaşıllıq və çobanyastığı, qerber başlıca yer tutur. İstixanada çalışan işçilər ailə üzvlərimizdir. Bunu bir növ ailə təsərrüfatı da adlandıra bilərik.



Müsahibimin sözlərinə görə, güllər də həssas canlılar kimidir, onların xüsusi qayğıya ehtiyacı var. Gülləri yığımdan əvvəl xüsusi dərmanlama prosesindən keçirir, hansı ki bu dərmanlama onların daha uzunömürlü edir. Hər bir gül üçün xüsusi miqdarda su ayrılır ki, onların növündən asılı olaraq hər birinə müəyyən ölçüdə su verilir. Güllər buketlənib müştəriyə təqdim olunduqdan sonra da müəyyən miqdarda suya qoyub, bir həftə müddətində saxlanıla bilər. Lakin gül dibçəkdə əkilibsə, o zaman saxlanılma şəraiti dəyişir. Belə məsləhətdir ki, dibçək gülləri daha çox gün düşən yerə qoyulmalı, dibçəyin özü balacadırsa, gülü tez böyütmək üçün qabını dəyişdirmək lazımdır. Çünki güllər tağını torpağa atmamış tez müddətdə qabı dəyişilsə, kökdən çürümə başlayar. Bizə müraciət edən insanlar daha çox çiçəyin görünüşünə önəm verir. Amma zövqlər müxtəlif olduğu üçün bu dəyişə də bilir. Müsahibimiz bir neçə illik təcrübəsinə və müşahidələrinə əsaslanaraq vurğulayır ki, bu növlər arasında insanların ən çox üstünlük verdikləri qızılgüldür. Qızılgül özünəməxsus ətri və incə görünüşü ilə bütün qadınların qəlbində xüsusi yerə sahibdir. Mağazada dekorativ güllər də satılır. Sahibkar onu da vurğulayır ki, qarşıdan gələn 8 Mart – Beynəlxalq Qadınlar Günü bayramı münasibətilə müştərilərə xüsusi endirimlər də təşkil olunacaq.

Hər kəs dəyər verib, əziz tutduğu yaxınları üçün müxtəlif növ gül hədiyyə etməklə onları sevindirə bilər.

Həmsöhbətim dedi: – Bu işə yeni başladığı illərdə gülə tələbat elə də çox deyildi. Sovet dönəmində Sədərək rayonu ərazisində gül istixanaları olsa da, sonradan həmin istixanaların çoxu fəaliyyətini dayandırdı. Bir müddət hər kəs Bakı şəhərindən gətirilən güllərin ümidinə qaldı. Biz bu istixananı yaratdıqdan sonra gül mağazası açaraq bu ticarəti daha da genişləndirdik. Bu gün əminliklə deyə bilərək ki, artıq Naxçıvanda gülə olan ehtiyacı ödəyirik və gül almaq, onu hədiyyə etmək ənənə halını alıb.

*Sonda biz də qarşıdan gələn 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bütün xanımlarımızı təbrik edir, ömürlərinin gültək təravətli olmasını arzu edirik.*

✍ **Bülbül QULİYEVA**

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi

### *Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə ədliyyə orqanlarında vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir*

Müsabiqəyə yerli icra və probasiya qurumlarında 7 vakant icra məmuru vəzifəsi (vəzifə kodu: 960000) çıxarılmışdır.

İcra məmuru vəzifəsinin tutulması üçün ali hüquq təhsilli Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 4 mart-1 may 2023-cü il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.ndim.gov.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməli və aşağıdakı sənədlərin skan olunmuş surətlərini "şəxsi kabinet"ə yükləməlidirlər:

*1. Şəxsiyyət vəsiqəsi;*
*2. Ali təhsil haqqında sənədlər;*
*3. Əmək kitabçası (olduğu təqdirdə);*
*4. Hərbi bilet;*
*5. 3x4 santimetr ölçüdə fotoşəkil (ağ fonda).*

Xarici ali təhsil müəssisələrinin məzunları təhsil sənədlərinin Azərbaycan Respublikasının ərazisində tanınması və ekvivalentliyinə dair şəhadətnamənin əslini və notarial qaydada təsdiq olunmuş surətini Dövlət İmtahan Mərkəzinə təqdim etməlidirlər.

Namizədlər imtahanda iştirak üçün qanunvericiliklə müəyyən edilmiş 100 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətindəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $09^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət İmtahan Mərkəzininə təqdim edilməlidir.

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum edilmiş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, tibbi rəyə əsasən fiziki və ya əqli qüsurlarına görə işləməyə qadir olmayan, qanunla müəyyən edilmiş həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar, məhkəmə, prokurorluq, ədliyyə, digər hüquq mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər işə qəbul edilmirlər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar mərkəzin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *office@ndim.gov.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 30 mart 2023-cü il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq əmlakın adı | Ünvanı | İstismara verildiyi il | Sahəsi (kv.m-lə) | Əmlakın satış qiyməti (manatla) | İlkin satış qiymətinin 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|
| 1. | Sənaye malları mağazası | Şahbuz rayonu, Kolanı kəndi | 2009 | 21.8 | 9500.0 | 950.0 |
| 2. | Dərzi sexi | Şahbuz rayonu, Kolanı kəndi | 2009 | 7.36 | 5600.0 | 560.0 |
| 3. | Məişət otağı | Şahbuz rayonu, Kolanı kəndi | 2009 | 7.68 | 5600.0 | 560.0 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 28 mart 2023-cü il tarixədək ödənilməlidir. Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- müvafiq formada sifariş;*
*- ödəniləcək behin qəbzi;*
*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 30 mart 2023-cü il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

**Əlaqə telefonu: 545-01-38**

## Elan

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına 2023-2024-cü tədris ili üçün təhsilin bakalavriat səviyyəsinə kursant qəbulu elan edilir. Akademiyada Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi və Yanğın təhlükəsizliyi mühəndisliyi ixtisasları üzrə kadr hazırlığı həyata keçirilir. Təhsil müddəti 4 ildir. Təhsil dövlət sifarişi əsasında ödənişsiz əsaslarla əyani şöbədə həyata keçirilir. Tədris Azərbaycan dilində aparılır.

Akademiyada müasir avadanlıqlarla təchiz edilmiş təlim qurğuları, ixtisaslaşdırılmış auditoriyalar, laboratoriyalar, xüsusi fənn kabinələri kursantların istifadəsindədir.

Akademiyaya qəbul olan şəxslər təhsil müddətində yemək, xüsusi geyim forması və yataqxana ilə təmin olunur, təqaüd alırlar. Akademiyanın məzunlarına seçdikləri ixtisasa uyğun "bakalavr" ali peşə-ixtisas dərəcəsi, hərbi və ya xüsusi rütbələr verilməklə Fövqəladə Hallar Nazirliyinin qurumlarında müvafiq vəzifələrə təyin edilirlər.

Akademiyaya qəbula namizədlər boyu 170 santimetrdən az olmayan, tam orta təhsilli və ya tam orta məktəbin buraxılış sinfində oxuyan, 17 yaşı 15 sentyabr 2023-cü ilədək tamam olan, yaxud müddətli həqiqi hərbi xidmətini başa vuraraq ehtiyata buraxılmış və 23 yaşı 15 sentyabr 2023-cü ilədək tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Qəbul imtahanı test üsulu ilə birinci mərhələdə buraxılış imtahanları fənləri üzrə, ikinci mərhələdə isə I ixtisas qrupunun fənləri üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir.

Akademiyaya qəbul olmaq istəyənlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- tərcümeyi-hal (abituriyentin şəxsən özü tərəfindən yazılmış);*
*- şəxsiyyət vəsiqəsinin və doğum haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti;*
*- hərbi biletin və ya ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqəsinin əsli və notarial qaydada təsdiq olunmuş surəti;*
*- tam orta məktəbdən, işlədiyi təqdirdə iş yerindən və ya hərbi hissədən xasiyyətnamə;*
*- tam orta təhsil haqqında sənədin əsli və notarial qaydada təsdiq olunmuş surəti, yaxud tam orta məktəbin buraxılış sinfində oxuması haqqında müəyyən olunmuş formada arayış;*
*- yaşayış yerindən arayış (daimi qeydiyyat yerində yaşamadığı halda);*
*- 4 ədəd 6x4 santimetr ölçüdə fotoşəkil ağ fonda, 2 ədəd 9x12 santimetr ölçüdə fotoşəkil qırmızı fonda (tünd rəngli pencəkdə);*
*- Dövlət İmtahan Mərkəzinin rəsmi saytında təsdiqlənmiş abituriyentin elektron ərizəsi.*
*- xüsusi həkim ekspertiza komissiyasına təqdim olunması üçün yaşayış yeri üzrə ruhi-əsəb, narkoloji, dəri-zöhrəvi, vərəm dispanserlərindən arayışlar, qeydiyyat yeri üzrə poliklinikaya son 5 il ərzində müraciətləri haqqında arayış, qanın İİÇV (HİV) antitellərinə görə müayinəsi, burunətrafı ciblərin rentgenoqrafiyası, sidiyin ümumi analizi.*

***Qeyd***: Bütün arayışların qeydiyyat tarixi, nömrəsi, imzası və möhürü olmalıdır.

*Sənədlər aprel ayının 15-dək (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi) qəbul ediləcək.*

***Əlaqə telefonu: (036) 544-48-50***

Həmçinin daha ətraflı məlumatı Fövqəladə Hallar Nazirliyinin *www.fhn.gov.az*, *fh.nakhchivan.az* və Dövlət İmtahan Mərkəzinin *www.dim.gov.az* rəsmi internet saytlarından əldə etmək olar.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhəri, Çənlibel məhəlləsi bina 28, mənzil 53 ünvanında Əliyeva Zülfiyyə Hüseyn qızının adına verilən MH-0001832 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi bina 4, mənzil 4 ünvanında Qurbanova İmbilbəni Qasım qızının adına verilən 01/34 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Həbibov Baxşəli Həbib oğluna məxsus JN-1190B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair" şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 172